**AZƏRBAYCAN XALQ PARLAMENTİ**

**AzXP-nin 46-ci İclası**

**Protokol № 46**

Tarix: 27 dekabr 2025-ci il
Başlanma vaxtı: 20:00 (Bakı vaxtı)
İclasın müddəti: 2 saat
İcra yeri: Onlayn
Sədr: Cavanşir Xanlarov
Katib: Kəmalə Mehtiyeva

İtirakçı sayı: **44**
Millət vəkili: **40**
Kanal: 1
SK üzvü: 3

İclas Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə açıq elan edildi.

Sədr Rəyasət Heyəti tərəfindən hazırlanmış gündəliyi səsverməyə çıxardı. Gündəlik **33 səs lehinə** olmaqla qəbul olundu.

**GÜNDƏLİK**

1. Ölkədə siyasi represiya mühitinə daxildən və xaricdən baxış (məruzəçi: millət vəkili  - E.Camalov).
2. Parlamentə 2-ci Çağırış seçkilərinin cari durumu haqqlnda məruzə (məruzəçi: SK-nın sədri – R.Əlizadə)
3. Cari məsələlərin müzakirəsi.

**1-ci məsələ:**

**Ölkədə siyasi represiya mühitinə daxildən və xaricdən baxış**

*(Məruzəçi millət vəkili E.Camalov)*

Çıxış zamanı məruzəçi E.Camalov 2025-ci il ərzində həyata keçirilmiş həbslər, qüvvəyə minmiş məhkəmə qərarları, AP-nın bu məsələlərlə əlaqədar olan Bəyanatı, cəzaçəkmə müəssisələrində olan durum və cəzaçəkənlərə verilən işkəncələr, o cümlədən, qanunsuz təqiblər və qətllər barədə geniş əsaslı məlumat verdi. Hakimiyyətin "represiya maşınına" qarşı mübarizə aparmağın üsulları və yolları barədə də müəyyən təkliflər verdi.

Millət vəkillərindən O.İskəndərli, S.Paşayeva, T.Verdiyev və o cümlədən, sədr C.Xanlarov da mövzu üzrə çıxış edərək müəyyən məsələlərə toxundular.

Yekunda millət vəkillərinin təklifi əsasında ölkədə hökm sürən represiya mühiti barəsində məlumatı özündə əks etdirən müraciətin və 31 dekabr Dünya azərbaycanlılarının həmrəylik günü münasibəti ilə təbrik məktubunun hazırlanmasına qərar verildi.

**2-ci məsələ:**

**Parlamentə 2-ci Çağırış seçkilərinin cari durumu haqqInda məruzə**

*(məruzəçi: SK-nın sədri – R.Əlizadə)*

Seçki komissiyasının sədri R.Əlizadə Parlament Seçkilərinin cari günə olan vəziyyəti barədə ətraflı məlumat verdi: qeydə alınan

namizədlərin və qeydiyyata alınmadan imtina edilmiş müraciətçilərin sayı, namizədlər üçün ayrılmış təbliğat saatları (ABA Media, Müqavimət TV və AzXP-nın yutub kanalında) barədə.

ABA Media yutub kanalının rəhbəri, millət vəkili T.Eminbəyli təbliğat saatı ilə əlaqədar namizədlə müraciət edərək debatlarda aktiv iştiraka dəvət etdi.

**3-cü məsələ:**

Cari məsələlər barədə çıxışlar

Millət vəkillərindən Aydın Ələkbərov, Teymur Eminbəyli, Telman Ələkbərsoy, Rövşən Qəmbər, Oqtay İskəndərli, Təranə Səfərsoy, Sevinc Zülfiqarova, Eldar Həmidov, Emil Camalov, Zirəddin Abdullayev, Ağası Məmmədli, Sədaqət Paşayeva, Süleyman Məmmədhüseynov, Yaşar Cəfərov, Əli Bədəlov, Hüseyn Pursüleyman ölkədəki ictimai-siyasi vəziyyət və gözləntilər barədə çıxış etdilər. Çıxışlar zamanı beynəlxalq qurumlarla əlaqələrin yaradılmasının zəruriliyi vurğulandı.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra iclas bağlandı.

Sədr: Cavanşir Xanlarov

Katib: Kəmalə Mehtiyeva (SK-nın üzvü)